UOT:930.85

# GƏNCƏ - QƏDİM XALÇA SƏNƏTİNİN MƏRKƏZİ KİMİ

***t.ü.f.d. Rəsulova Nərgiz Aydın qızı***
***Gəncə Dövlət Universiteti***
**nararasulova@bk.ru**

**Xülasə:** *Azərbaycan xalq tətbiqi sənətinin qollarından biri olan xalçaçılıq həm də Azərbaycan xalqının az qala rəmzinə çevirilmiş bir sənətdir. Azərbaycan xalçaları sənət sahəsi kimi 7 xalçaçılıq məktəbinə bölünür. Bunlar Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz məktəbləridir.*

*Azərbaycanda xalçaçılıq sənətinin inkişafında Gəncə xalçaçılıq məktəbinin öz yeri var. Əvvəllər Gəncədə və onun ətraflarında istehsal olunan bütün xalçalar regionun adı ilə "Gəncəbasar" adlanırdı. Onların hər birinin özünün xüsusi xalça tipi olmasına baxmayaraq, Gəncəbasara aşağıdakı xalçaçılıq məntəqələri daxil idi: Samux, Fəxralı, Zeyvə, Çaylı, Alıuşağı, Sarısu, Mollabazı, Balçılı, Qaracəmirli, Şəmkir, Gədəbəy.*

**Açar sözlər:** Azərbaycan, Gəncə şəhəri, xalça, ceynamaz, kilim, palaz
**Key words:** Azerbaijan, Ganja city (the city of Ganja), carpet, jeynamaz, kilim, palaz
**Ключевые слова:** Азербайджан, город Гянджа, ковер, джеинамаз, килим, пала

Hər xalqın mədəniyyət tarixində elə sənət sahəsi vardırki, orada onun zəngin mənəvi aləmi əks olunmuş, xarakteri, intellekti, dünyagörüşü, estetikası və həyat fəlsəfəsinə xas olan köklü xüsusiyyətlər öz təcəssümünü tapmışdır. Azərbaycan xalqı üçün belə sənət növü xalçaçılıqdır. Etnoqrafik baxımdan dünyanın ən zəngin və maraqlı guşələrindən biri olan Azərbaycan zaman – zaman yaratdığı mədəni sərvətləri arasında ən önəmli yer tutan, ənənəvi olaraq əziz tutduğu xalça sənəti ilə böyük şöhrət tapmışdır[1, 213]. Qədim və zəngin ənənələri özündə yaşadan xalça sənəti həm tədqiqat mənbəyi kimi, həm də irsi mədəniyyətin daşıyıcısı olaraq hər zaman olduqca maraqlı və əhəmiyyətli olmuşdur. Azərbaycan xalq tətbiqi sənətinin qollarından biri olan xalçaçılıq həm də Azərbaycan xalqının az qala rəmzinə çevirilmiş bir sənətdir.

Azərbaycanda xalçaçılığın çox qədim tarixi var. Arxeoloji materiallar və yazılı mənbələr əcdadlarımızın hələ eramızdan əvvəl də bu sənətlə məşğul olduğunu sübut edir[7]. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə 7 xalçaçılıq məktəbinə bölünür. Bunlar Quba, Bakı, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz məktəbləridir.

Azərbaycan xalçaları yalnız bölgələrə görə fərqlənmir. Hazırlanma üsullarına görə də seçilir. Daha ümumi şəkildə onları iki böyük qrupa ayırmaq olar: xovlu və xovsuz xalçalar. Xovsuz xalçaların onlarla növ vardır: palaz, kilim, cecim, sumax, şəddə, vərni… Xovsuz məmulatlar sırasına xalçalardan əlavə məfrəş və xurcunlar, çuval və çullar, heybə və örkənlər, kiçik çantaları əvəz edən xalça məmulatları, torbalar və digərləri də xovsuzlar qrupuna aid edilir. Xalçalardakı bu müxtəliflik insanların həyat tərzi ilə əhəmiyyətli dərəcədə bağlıdır.

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında Gəncə xalçaçılıq məktəbinin öz yeri var. Hələ qədim zamanlardan Gəncə bölgəsi əhalisinin məişətində xalça və xalça məmulatları əsas yer tutmuşdur. Gəncə və onun ətrafında müxtəlif ölçülü xalçalarla, kilimlərlə bərabər namazlıqlar, çullar və digər toxuculuq məmulatları da var idi. Zəngin təbiəti bu bölgənin xalçalarına xüsusi çalarlar vermiş, onun rəng kompozisiyasının həllinə çox çeşidli boyalar bəxş etmişdir. Al-əlvan boyalar bu bölgənin xalçalarını digərlərindən fərqləndirən əsas xüsusiyyətdir. Xalçaların naxış-kompozisiya seçimində də yerli əhalinin təsəvvürü, mifik görüşləri, inancları mühüm yer tutmuş, onların ifadəsi xalçalarda öz əksini tapmışdır.

Azərbaycanın müxtəlif xalçaçılıq qrupları ilə sıx əlaqəsi olan Gəncə xalçalarının, bu ərazidə yaşayan insanların düşüncə və hisslərinin əsas müstəvisi kimi çıxış etdiyini söyləmək olar. Gəncə qrupuna aid xovlu və xovsuz xalçalarda sıxlıq 1 $dm^2$-də 25×40-dan 32×45-dək

olur. Gəncə xalçalarının naxışları əsasən həndəsi formalı bəzək elementlərindən ibarətdir. Onların heç biri sadə görüntü olaraq vizual məna kəsb etmir. Hər bir naxışın öz mənası və təyinatı vardır. Gəncədə toxunan xalçalar üzərində hicri təqvimi ilə onun istehsal tarixi, ustanın adı, mənsubiyyət bildirən şərti nişanlar toxunmuşdur[4].

Gəncə toxucularının xalçalarda ən çox istifadə etdikləri ətrafları pilləli göl, qarmaqlı naxış, romb, üçbucaq, səkkizguşəli ulduz, ceyran, quş, damğa təsvirləridir. Naxışların digər qismi gül formasından və ya fantastik heyvan təsvirlərindən ibarət olub, kiçik ölçülərdə toxunduqları üçün xalçalarda aparıcı mövqe tutmurlar. Bu təsvir üslublarının analoqu heç bir başqa xalqda yoxdur. Bunlar inanclardan irəli gələn naxış növləridir. Zaman-zaman onların təsvir formaları bir çox bədii, tarixi, fəlsəfi təsirlərdən assimilyasiyaya uğramış, stilizə edilmiş yeni ifadə formalarında xalçalar üzərində toxunmuşdur. Məhz bu təsəvvürlərdən irəli gələrək çox zaman Gəncə xalçalarında toxunan gölləri əhatə edən qarmaq və ya caynaq adlanan elementlər yaranmışdır. Əsasən yırtıcı ov quşlarının simvolu olan qartal qədim türklərə, oğuzlara məxsusdur[5,44]. Məhz Gəncə qrupuna aid bir çox xalçalar üzərində nəinki caynaq, bəzi hallarda hətta stilizə edilmiş quş, qartal başlarının belə təsvirləri toxunmuşdur. Gəncə xalçalarının xarakterik xüsusiyyətləri onların nisbətən uzunsov, habelə hündür xovlu, müxtəlif ilmə sıxlığında və naxışlarının nisbətən iri həcmdə olmasıdır. Gəncə bölgəsində o qədər də iri olmayan xalçaların toxunması üçün evlərdə və ya həyətdə quraşdırıla biləcək daşınan kiçik hanalardan, daha böyük ölçülü xalıların toxunması üçün isə iri stasionar hanalardan istifadə edilirdi[3,103]. Bu hanalara ərişin çəkilməsi prosesi bir neçə peşəkar ustanın əməyi ilə həyata keçirilirdi.

Gəncə qrupu xalçalarından fraqmentlər. Şəkil 1.







Xovlu yun xalça. 286×125. 1830-cu il.Gəncə qrupu. Xovlu yun xalça. 248×157. 1928-ci il. Gəncə qrupu.

Əvvəllər Gəncədə və onun ətraflarında istehsal olunan bütün xalçalar regionun adı ilə "Gəncəbasar" adlanırdı. Onların hər birinin özünün xüsusi xalça tipi olmasına baxmayaraq, Gəncəbasara aşağıdakı xalçaçılıq məntəqələri daxil idi: Samux, Fəxralı, Zeyvə, Çaylı, Alıuşağı, Sarısu, Mollabazı, Balçılı, Qaracəmirli, Şəmkir, Gədəbəy.





Şəkil 2.

Fəxralı xalçaları (şəkil 2) adını Gəncə şəhərindən 25 km şimal-şərqdə yerləşən Fəxralı kəndinin adından almışdır. Bəzi xalçaçılar bu xalçanı *"Gəncə-fəxri"* də adlandırırlar[6,117]. Fəxralı xalçaları dini mərasimlərdə, eləcə də namaz qılma mərasimində istifadə olunduğu üçün əsasən kiçik ölçüdə hazırlanırdı. Bu səbəbdən də Fəxralı xalçaları xalq arasında *"Çaynamaz"* və ya *"Ceynamaz"* (namaz qılınan yer) kimi də adlandırılmışdır.




Şəkil 3. Şəkil 4.

Yaxın keçmişə qədər Gədəbəy xalçaçılıq (şəkil 3.) məktəbinin istehsal mərkəzləri həm də Çaykənd və Gölkənd (müasir Ermənistan ərazisində yerləşən qədim Azərbaycan kəndi "Qaraqoyunlu" adlanırdı) kəndləri idi [5, 116]. .

Bəzi xalçaçılar Çaylı xalçalarını (şəkil 4.) *"Gəncə şəhər"*, *"Qazaxça"*, *"Öysüzlü"*, *"Qaraxanlı"* adlandırırlar. Çaylı xalçaları Şirvan xalçaçılıq məktəbinə aid olan "Qobustan xalçaları" və "Mərəzə xalçaları"nın orta sahəsindən götürülmüş bəzi elementlərin şəkilləri bir qədər dəyişdirilərək "Gəncə xalçaları"nın texniki xüsusiyyətlərinə uyğun şəkildə toxunulmuşdur.

Çıraqlı xalçaları (şəkil 5.) bəzən “Qazaxça xalçası”, “Gəncə xalçası”, “Fəxralı xalçası”, “Şəmkir xalçası” və digər adlarla da adlandırılmışdır[4].




Şəkil 5. Şəkil 6.

Samux xalçaları (şəkil 6.) Gəncə qrupunda ən qədim və ən məşhur xalçalar hesab olunur. Xalçanın sadə, lakin orijinal kompozisiyası Gəncə qrupundan olan digər xalçaların kompozisiyasından fərqlənir. Ara sahənin mərkəzində kvadrat formada göl, gölün yuxarı və aşağı hissələrində isə orta ölçülü ulduz şəkilli medalyonlar yerləşir. Bu medalyonlar daha çox Şirvan və Quba xalçaları, xüsusən Zeyvə xalçaları üçün xarakterikdir [4,14]. Ara sahənin sərbəst yerlərini Gəncə və Qarabağ xalçaları üçün xarakterik olan dairə formasında nəbati bəzəklər doldurur [7,114].

Şadılı xalçaları (şəkil 7.) Gəncə xalçaçılıq məktəbinin orta keyfiyyətli xalçalar kateqoriyasına aiddir. Xalçaçılar bu xalçanı *"Qazax xalçaları"* və ya *"Ağstafa xalçaları"* da

adlandırırlar. Şadılı xalçaları üçün xarici ədəbiyyatda və bəzi digər mənbələrdə isə *"Gəncə xalçaları"* və ya *"Qafqaz xalçaları"* adlarına rast gəlmək olar[2]. Şadılı xalçalarında *"Qab-qabı"* adlanan orta haşiyənin enli zolaqları mürəkkəb quruluşu ilə fərqlənir ki, bu cür köbə naxışları Azərbaycandan başqa Yaxın Şərqdə də toxunmuşdur.



Şəkil 7.

Gəncə xalça sənətinin sonrakı inkişaf dövrü XX əsrin ortalarına təsadüf edir. Bu dövrdə Azərbaycan xalça sənətinininkişafı bir neçəistiqamətdə davam edərək, çox cəhətli xarakter daşımış dır. Gəncə xalçaları sovetlər dönəmində də şöhrət qazanmışdı. Şəhərdə ən böyük istehsal gücünə malik olan xalça kombinatının məhsulları nəinki müttəfiq respublikalara, eyni zamanda xarici ölkələrə də ixrac edilirdi. İkinövbəli sistemlə işləyən kombinatda nəhəng dəzgahlarda toxunan xalçalara, demək olar, hər yerdə tələbat var idi. Xalçalar dəzgahlarda toxunsa da, xalçalarda Gəncə xalçaçılıq məktəbinin ənənələri qorunurdu.

Gəncə xalçaçılıq məktəbinin ənənələri bu gün də yasadılır. Hazırda qədim Nizami yurdunda dörd xalçaçılıq emalatxanası fəaliyyət göstərir. Onlardan biri Heydər Əliyev Mərkəzində, biri Məhsəti Mərkəzində, biri toxuculuq kombinatının nəzdində, biri isə əməkdar rəssam Şərif Şərifovun emalatxanasındadır[10].

2010-cu ildə Azərbaycan xalça sənəti UNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı"na daxil edildi. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir. 2014-cü ildən fəaliyyətə başlayan Xalça Muzeyi Azərbaycan xalçasının dünya miqyasında yetərincə təbliğinə və tanınmasına töhfəsini verir.

## ***Ədəbiyyat***

1.Azərbaycan incəsənəti. Ə.Salamzadə, N.Rzayev, K.Kərimov, R.Əfəndiyev, N.Həbibov.- Bakı: Maarif, 1977

2.Azərbaycan xalçaları cild 2, № 4, Bakı-2012

3.Azərbaycan Qazax xalçaçılıq məktəbi. R.Əfəndi, T.Əfəndi; AMEA.- Bakı: Elm, 2006

Britannica Encyclopedia. Genje carpet.

4.İsayev, Ə. Kirovabad (indiki Gəncə) xalçasının şöhrəti. Bakı: Azərnəşr, 1978

5.Лятиф Керимов. Азербайджанский ковёр. Том III. II. Б.: «Гянджлик», 1983

6.Vidadi Muradov. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı –"Elm"2010

7.www.anl.az

8.www.muzesunasliq.azeriblog.com

9.www.mct.gov.az

## ГЯНДЖА - КАК ЦЕНТР ДРЕВНЕГО КОВРОВОГО ИСКУССТВА

***Расулова Наргиз Айдын кызы***

***Резюме***

Ковроткачество, одно из направлений азербайджанского народного искусства, также является искусством, которое почти стало символом азербайджанского народа. Азербайджанские ковры разделены на 7 школ ковроткачества как области искусство. Это школы Губы, Баку, Ширвана, Гянджи, Газаха, Карабаха, Тебриза.

Гянджинская ковровая школа занимает свое место в развитии ковроткачества в Азербайджане. Раньше все ковры, производимые в Гяндже и ее окрестностях, назывались "Гянджабасар" по имени региона. Несмотря на то, что каждый из них имеет свой особый вид ковра, в Гянджабасаре были следующие центры ковроткачества: Самух, Фахрали, Зейва, Чайли, Алюшаги, Сарису, Моллабази, Балчили, Гараджамирли, Шамкир, Гедабек.

## GANJA - AS THE CENTER OF ANCIENT CARPET ART

***Rasulova Nargiz Aydin***

***Summary***

Carpet weaving, one of the branches of Azerbaijani folk art, is also an art that has almost become a symbol of the Azerbaijani people. Azerbaijani carpets are divided into 7 carpet - weaving schools as an art field. These are Guba, Baku, Shirvan, Ganja, Gazakh, Karabakh, Tabriz schools.

Ganja carpet school has its place in the development of carpet weaving in Azerbaijan. Earlier, all carpets produced in and around Ganja were called "Ganjabasar" after the region. Despite the fact that each of them has its own special type of carpet, Ganjabasar included the following carpet-weaving centers: Samukh, Fakhrali, Zeyva, Chayli, Alyushagi, Sarisu, Mollabazi, Balchili, Garajamirli, Shamkir, Gadabay.

***Rəyçi: t.ü.f.d. Məmmədova Yeganə***
***Ümumi tarix kafedrasının 08 dekabr 2021-ci il tarixli icalasın 04 saylı protokolu***
***Daxil olma tarixi 09 sentyabr 2021-ci il***

**UOT:94(479.24)**

## TERROR VƏ DAVAMLI İNKİŞAF

***Dos. Yusifov Fuad Yusif oğlu, Dos.əv. Tağıyeva Mehriban İmran qızı***
***Azərbaycan Texnologiya Universiteti***
***tagiyevamehriban@mail.ru***

**Xülasə:** *Məqalədə terror və terrorizmin mənşəyi və təkamülü təhlil edilir. Əsrlər boyu bu hadisələr ayrı-ayrı dövlət tərəfindən təşkil edilmiş siyasi hökmranlığa nail olmaq üçün ən radikal yolları təmsil etmişdir. Onların təkamülündə xüsusi bir mərhələ Böyük Fransız İnqilabı (1789 - 1794) idi, bu dövrdə terror inqilabi məqsədəuyğunluq prinsipi olaraq qurumsallaşdı. Sonradan bu, XX əsrin ən böyük ictimai-siyasi kataklizmləri zamanı müəyyən sosial qruplara və xalqlara qarşı repressiyaların əsaslandırıcısı oldu. Siyasi hökmranlığa nail olmaq üçün təsirli bir vasitə olaraq, terror və terrorizm dünya birliyinin aparıcı ölkələri tərəfindən də müstəmləkəçilik siyasətini həyata keçirərkən istifadə edilir. Müasir siyasi praktikada terror və terrorizm qlobal problem xarakteri alıb və həm ayrı -ayrı dövlətlər, həm də beynəlxalq terror təşkilatları tərəfindən hökmranlığını təsdiq etmək prosesində istifadə olunur.*